**FƏNN**: QİYMƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# MÖVZU 9: QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ VƏ İNFLYASİYA

**Müəllim**: Rafiq Vahid oğlu Abbasov
**Tarix :** 2025

**İxtisas**: Marketinq

**Qrup**: $3^1, 3^2, 3^3$

**Mühazirə:** Qarışıq

**FTN 4**. Qiymətlərə inflyasiyanın təsiri, qiymətlərin firma və dövlət tərəfindən tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi öyrənilir

## P L A N

1. İnflyasiya prosesində qiymətlərin rolu.
2. İnflyasiyanın inkişaf mərhələləri və qiymətlərin dinamikası.
3. Qiymətlərin inflyasiya artımının nəticələri və onların iqtisadiyyatın inkişafına təsiri.

## ƏDƏBİYYAT


1. Çudakov A.D. . “Qiymət və qiymətin əmələ gəlməsi” Dərslik. Bakı, “Elm”, 2009, rus dilindən tərcümə, 312 səh.

2. Kazımlı X., Bayramov Q., Sadıqov B., Quliyev İ., Hümbətova S., Məmmədov İ. Qiymətin əmələ gəlməsi. Dərslik Bakı, “Müəllim”, 2019, 498 səh.

3. Qarayev İ. Qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, UNEC, 2000, 358 səh.

4. Qafarov N.C., Quliyev İ.Q. Qiymət və qiymətləndirmə. Bakı, ADİU, 2017, 375 səh.

## *1. İNFLYASİYA PROSESLƏRİNDƏ QİYMƏTLƏRİN ROLU*

İqtisadçılar inflyasıyanın mahiyyətini müxtəlif cür şərh edirlər. İnflyasiyanın ayrı-ayrı nəzəri konsepsiyalarının tədqiqi göstərir ki, inflyasiya keyfiyyət təhlili və kəmiyyətcə ölçülməsi çətin olan ən mürəkkəb sosial-iqtisadi hadisələrdən biridir.

İnflyasiya ÜDM –in natural-əşya və dəyər strukturunda, həmçinin milli gəlirdə disproporsiyaların artmasının dərin makrosəviyyəli proseslərinin nəticəsidir ki, o da pul tədavülünün pozulmasına, tədavüldə nağd və nağdsız formalarda artıq vəsaitlərin yaranmasına səbəb olur. Bu proseslər nəticəsində milli valyuta qiymətdən düşür, onun alıcılıq qabiliyyəti azalır, qiymətlərin artması və s. baş verir.

Qiymətlərin artması inflyasiyanın ən mühüm, lakin yeganə olmayan göstəricisidir. Onun indikatorları həmçinin pul emissiyası, tədavüldəki pul kütləsinin artması, dövlət büdcəsinin kəsiri və s. hesab olunur. Artıq nağd və nağdsız tədiyə vəsaitlərinin dövriyyəsi və onların doğurduğu pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi qiymət inflyasiyasını, tələb inflyasiyasını, xərclər inflyasiyasını, gəlirlər inflyasiyasını, bank faizləri inflyasiyasını və i.a. törədir.

İnflyasiya heç də yeni hadisə deyildir və çoxdan bir sıra ölkələrin (ABŞ, İngiltərə, Fransa, Almaniya və s.) iqtisadiyyatında baş vermişdir. İnflyasiya prosesləri indi də dünya ölkələrinin çoxunda, xüsusən də Latın Amerikası, Afrika və Asiya ölkələrində, o cümlədən Azərbaycanda baş verir.

İnflyasiya hər bir ölkənin bazar iqtisadiyyatının zəruri yol yoldaşıdır. İnkişaf etmiş ölkələrdə (ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya) inflyasiyanın əsas növü mülayim inflyasiyadır. Bu ölkələrdə həyata keçirilən dövlət tənzimləməsi onu yol verilən həddə saxlamağa imkan verir.

Müasir inflyasiyaya aşağıdakı əlamətlər xasdır:

a) ümumi xarakter, yəni inflyasiya bütün iqtisadiyyatı əhatə edir;

b) xroniki xarakter;

c) çoxamillik, yəni inflyasiya həm pul, həm də qeyri-pul amillərinin təsiri altında baş verir.

İnflyasiya – pulun alıcılıq qabiliyyətinin aşağı düşdüyünü göstərən kateqoriyadır. O, aşağıdakılara münasibətdə pulun qiymətdən düşməsində təzahür edir:

a) əmtəələrə (*əmtəələrin qiymətinin artması*);

b) qızıla (*qızılın bazar qiymətinin qalxması*);

c) xarici valyutalara (*xarici pul vahidlərinə nisbətdə milli valyutanın məzənnəsinin aşağı düşməsi*).

Pul artıqlığı onların dəyərdən düşməsinə və nəticədə də qiymətlərin yüksəlməsinə səbəb olur. Bu inflyasiyanın ən mühüm təzahürlərindən biridir. Buna görə də bəzi iqtisadçılar inflyasiyanı istehlak qiymətlərinin artması ilə eyniləşdirirlər. Məsələn, K.R.Makkonnell və S.M.Bryu "*Ekonomiks*" əsərində qeyd edirlər ki, "*inflyasiya – qiymətlərin ümumi səviyyəsinin qalxmasıdır*" və onu istehlak mallarının qiymət indeksinin köməyi ilə ölçülməsi təklifini irəli sürürlər. Bu bir daha göstərir ki, qiymətlərin artması inflyasiyanın əsas tərkib hissələrindən biridir.

Lakin qiymətlərin hər cür artımı inflyasiyaya aid edilməməlidir. Məsələ bundadır ki, əvvələn, əgər qiymətlər təbii xammal hasilatı şəraitinin pisləşməsi ilə əlaqədar olaraq istehsal xərclərinin artması nəticəsində yüksəlirsə, bu təbii hal sayılır. Qiymətlərin belə qalxmasını inflyasiya adlandırmaq olmaz. İkincisi, qiymət artımı əmtəələrin keyfiyyətinin yüksəldilməsi, müasir dəbə müvafiq olaraq yeni əmtəələrin buraxılışı və i.a. əlaqədar yarana bilər. Bu halda da inflyasiya barədə danışmaq olmaz.

İnflyasiyanın doğurduğu qiymət artımına tamamilə başqa səbəblər və əlamətlər xasdır. Onun <u>xarici təzahürü</u> bunlardır:

a) kütləvilik, yəni praktiki olaraq bütün əmtəələrin qiymətlərinin qalxması;

b) qiymətlərin artmasının fasiləsizliyi;

c) qiymətlərin yüksəlməsinin uzun çəkməsi.

Qiymətlərin inflyasiya və qeyri-inflyasiya artımını ayırmaq əməli olaraq mümkün deyildir. Bu da inflyasiyanın iqtisadi təhlilinin mürəkkəbliklərindən biridir.

Azərbaycanın bazara keçidi dövründə inflyasiyanın mahiyyəti və səbəblərinə dair məsələ kəskin iqtisadi və siyasi mübahisələr mövzusu olmuşdur. Buna görə də ölkədə qiymətlərin liberallaşdırılmasından sonra inkişaf edən inflyasiya proseslərinin dərindən və hərtərəfli öyrənilməsi zərurəti yaranmışdır.

İnflyasiyanın təbiətinin və qiymətlərin onun baş verməsində rolunun aydınlaşdırılması, həm ona qarşı mübarizə, həm də onun proqnozlaşdırılması

metodlarının tapılmasını mümkün edir. Müxtəlif təsərrüfatçılıq subyektlərinin bu proqnozların dəqiqliyinə maraq göstərmələri aydındır. Çünki özünün inkişaf sürətləri ilə inflyasiya hamının mənafeyinə toxunur.

İnflyasiya proseslərinin, xüsusilə XX əsrin ikinci yarısında güclənməsi inflyasiya probleminin nəzəri cəhətdən işlənməsini zəruri etdi ki, nəticədə də müxtəlif elmi məktəblər yarandı. Bunlardan ən geniş yayılanları keynsçi və monetarist inflyasiya nəzəriyyələridir. Keynsçi nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, inflyasiyanın əsas amili dövlət proqramlarının stimullaşdırdığı iş qüvvəsinə artıq tələbdir. Beləliklə, onların fikrincə inflyasiyanın səbəbi, əhalinin yüksək məşğulluq səviyyəsinin təmin olunmasına yönəldilmiş dövlət tənzimlənməsidir. İnflyasiyanın bu növü "*tələb inflyasiyası*" adını almışdır.

Keynsçi nəzəriyyənin dəyişilmiş forması inflyasiyanı istehsal xərclərinin artması ilə izah edir. Bu inflyasiya "*xərclər inflyasiyası*" adlandırılır. Burada inflyasiyanın baş verməsi mexanizmi sahibkarların mənfəət normasının yüksəldilməsi məqsədilə qiymətlərin qaldırılması cəhdi və işçilərin əmək haqqının artırılması tələbləri arasındakı qarşılıqlı əlaqə ilə şərtlənir. İnflyasiyanın qarşısını alan amil kimi əmək haqqının artımının həmin firmanın əldə etdiyi əmək məhsuldarlığının səviyyəsi ilə məhdudlaşdırılması nəzərdə tutulur.

İnflyasiyanın monetarist nəzəriyyəsi iqtisadiyyatın pul dairəsinin tədqiq edilməsi ilə əlaqədardır. Bu nəzəriyyəyə görə ilkin mərhələdə tədavüldə olan pulun miqdarının artması nəticəsində istehsalın həcminin çoxalması baş verir. Tədavüldəki pul kütləsinin artması tədiyə dövriyyəsinin və əlavə kapitalın investisiya edilməsinin sürətlənməsi ilə nəticələnir. Bu zaman qiymətlərin yüksəlmə sürəti tədavüldə olan pulun miqdarının artım sürəti ilə müqayisədə aşağı olur.

İnflyasiya prosesinin ikinci mərhələsində qiymətlər tədavüldə olan pulun miqdarına nisbətən daha sürətlə qalxmağa başlayır. Bununla da pulun dövriyyəsi (*tədavül sürəti*), onun tədavüldəki miqdarına nisbətən daha sürətlə yüksəlir. Hamı puldan yaxa qurtarmağa çalışır. Bununla əlaqədar olaraq "*qaynar pullar*" anlayışı yaranmışdır. Tədricən inflyasiyanın tədavüldəki pulun alıcılıq qabiliyyətinin azalmasının xas olduğu böhran nöqtəsi deyilən məqam yaxınlaşır. Həmin andan etibarən, müəyyən məbləğ pula getdikcə daha az əmtəə almaq mümkün olur.

İnflyasiyanın böhran nöqtəsi şəraitində büdcəyə daxil olmalar, xüsusən də müstəqim vergilər azalır, çünki onlar əvvəlki dövrdə qiymətləndirilən gəlir və əmlakdan hesablanırlar. Dolayı vergilərdən də daxil olmalar azalır. Bu şəraitdə dövlət yeni pul emissiyasını həyata keçirilir.

Beləliklə, inflyasiyanın inkişafının ilkin mərhələsində sahibkarlar və əhali qiymətlərin səviyyəsinin sabitliyinə müəyyən inam ifadə edirlər. Bu mərhələdə inflyasiyanın sürəti tədavüldə olan pulun miqdarının artım sürətindən yüksək olmur.

Növbəti, yəni ikinci mərhələdə vəziyyət ciddi şəkildə əks tərəfə dəyişilir. Belə ki, inflyasiyanın və qiymətlərin artım sürətləri tədavüldə olan pulun miqdarının artımını ötüb keçir, əhali və firmalar isə inflyasiyanın artımına inanaraq pula tələbi azaldırlar.

İnflyasiyanın səbəblərinin dərin elmi təhlili üçün ilk növbədə onun mənbələrini müəyyən etmək lazımdır. Dünya ölkələrində inflyasiyanın təhlili onu doğuran aşağıdakı <u>əsas səbəbləri</u> aşkara çıxarmağa imkan verir:

1) istehsalın strukturunda disproporsiyalar, istehsal vasitələrinin xüsusi çəkisinin həddən artıqlığı;
2) iqtisadiyyatın hərbiləşdirilməsi və hərbi xərclərin çoxalması;
3) dövlət büdcəsinin kəsiri;
4) dövlət borcunun artması;
5) uzun müddətli kapital qoyuluşlarının (o cümlədən kredit vasitəsilə) həcminin şişirdilməsi.

İnflyasiyanın ilkin səbəbinin istehsal sahəsində, onun struktur uyğunsuzluğu dairəsində olduğunu xüsusi qeyd etmək lazımdır. Yəni həddən artıq istehsal vasitələri istehsalı üçün istehsal vasitələri, hərbi texnika və az miqdarda isə istehlak malları buraxılır.

İqtisadiyyatın hərbiləşdirilməsi və hərbi xərclərin artırılması inflyasiyanın ən mühüm səbəbidir. Böyük hərbi xərclərin maliyyə təminatı ölkə büdcəsinə ağır yük olmaqla, onun xroniki kəsirini törədir. Hərbi məsrəflər iqtisadi siyasətin sabitləşdirici tədbirlərinin səmərəsini sarsıdır. Dövlət xərclərində bu məsrəflərin xüsusi çəkisi nə qədər yüksəkdirsə, qiymətlərin ümumi səviyyəsinin dinamikasına onların mənfi təsiri o qədər güclü olur.

Hərbi xərclərin artmasının sürətlənməsi iqtisadiyyatın ayrı-ayrı sahələrində həddən artıq tələbin yaranmasına aparıb çıxardır ki, bu da sonradan di-

gər sahələrə yayılmaqla qiymət artımını stimullaşdırır. Ölkənin bazar iqtisadiyyatına keçdiyi şəraitdə defisit resursların hərbi alışları ciddi qiymət artımına səbəb olur.

Qeyd etmək lazımdır ki, iqtisadi problemlərin qiymətlərin yüksəldilməsi yolu ilə həll edilməsi cəhdi iqtisadiyyatda böhran hallarının nəzarət olunmayan dərəcədə artması ilə nəticələnir. Böhran vəziyyətinin təzahürlərindən biri qiymət artımını tələsdirən defisitdir. Defisit baş verdikdə çatışmayan əmtəələr sırasında, hətta normal şəraitdə bol olan əmtəələr də yer alır.

İnflyasiyanın digər ən mühüm səbəbi dövlət xərclərinin gəlirlərdən çox olması nəticəsində yaranan büdcə kəsiridir. Bu da pul emissiyasını (*nağd və nağdsız*) doğurur. Büdcə kəsirinin ödənilməsi üçün hökumət əlavə maliyyə vəsaitləri axtarmağa məcbur olur. Onların əldə edilməsinin əsas mənbələri isə pul emissiyası (*nağd və nağdsız*), dövlət istiqrazlarının satışı və xarici borclardır.

Mənbəyinin vergi daxil olmalarının təşkil etdiyi dövlətin büdcə xərcləri bütün ölkələrdə ciddi inflyasiya amilidir. Bu xərclər çoxalmağa meylli olduqlarına görə, vergilər də labüd surətdə artır. Qiymətlərin aşağı salınması vergiqoyma bazasını daraldır ki, bu da dövlət üçün əlverişli deyildir.

Dövlət xərclərinin mühüm maddəsi büdcə sahəsinin (*idarəetmə, səhiyyə, təhsil, elm, pensiya təminatı və s.*) saxlanılmasıdır. Bu xərclərin müntəzəm surətdə artmasına baxmayaraq, ölkəmizdə büdcə sahəsinin maliyyə təminatı hələ də aşağı səviyyədədir, onların saxlanması məsrəflərinin artması isə inflyasiya meyllərini obyektiv surətdə gücləndirir.

Dövlət xərclərinin artmasının digər mühüm amili daima artmaqda olan ətraf mühitin qorunması xərcləridir.

Kəsirli büdcə maliyyələşdirilməsi inflyasiyanın tükənməz mənbəyi olan dövlət borcunu törədir. Onun sürətlə artması defisit maliyyələşdirmə praktikasının səciyyəvi əlamətidir.

İnflyasiyanın mühüm səbəblərindən biri də uzun müddətli kapital quyuluşlarının həcminin həddən artıq çoxaldılmasıdır. Bu tamamlanmamış istehsalatın həcminin artmasında və yeni obyektivlərin tikintisinin maliyyələşdirilməsində təzahür edir.

İqtisadiyyatda inflyasiyanın baş verməsinin səbəbi hasilat sahələrində qiymətlərin artmasıdır ki, bu da xalq təsərrüfatı sahələrinin çoxunda xərclərə

ciddi təsir göstərir. Qiymətlərin belə artımının səbəbləri hasilat sahələrində əmək haqqının yüksəldilməsi, maşın və avadanlıqlara çəkilən məsrəflər və s. ola bilər.

Xammalın, yanacağın və nəqliyyatın qiymətlərinin və tariflərinin yüksəldilməsi dərhal iqtisadiyyatın demək olar ki, bütün sahələrini çətin iqtisadi vəziyyətə salır. Xammal sahələrində qiymətlərin artmasının ardınca, xammal və yanacaqdan istifadə edən sahələrdə, sonra isə digər sahələrdə də qiymətlərin artımı baş verir.

## *2. İNFLYASİYANIN İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ QİYMƏTLƏRİN DİNAMİKASI*

İnflyasiyanın fəaliyyət mexanizmi necədir? Öz inkişafının başlanğıcında inflyasiya tələbin artmasını və istehsalın genişləndirilməsini müəyyən dərəcədə stimullaşdırır. Bu onunla izah edilir ki, qiymətlərin yenə də artacağına inanan sahibkarlar pullarını mümkün qədər tez maddi sərvətlərə çevirməyə çalışır və yeni avadanlıqlar, xammal, materiallar və i.a. alırlar.

İnflyasiya iri firmalara, xüsusilə də inhisarçılara, onların mənfəətinin artmasına imkan yaratdığına görə əlverişlidir. Məsələ bundadır ki, əvvələn, əmək haqqının yüksəlməsi, adətən, əsas istehlak mallarının qiymət artımından geri qalır, bu da firmalar üçün inflyasiya üstəlik mənfəətini təmin edir. İkincisi, qiymətdə mənfəətin payının çoxalması əmək haqqının artımına mütənasib surətdə yüksələn qiymətlərdə də əldə oluna bilər. Bu onunla izah edilir ki, istehsal xərclərində, xüsusən də emaledici sənayesi sahələrinin məhsulunun qiymətində istehsal fəhlələrinin əmək haqqının xüsusi çəkisi az bir hissəni (*15-20%*) təşkil edir və bu da mənfəətin artmasına səbəb olur.

İnflyasiya inhisarların mənfəətinin artmasına yalnız birbaşa deyil, həm də dolayı yollarla kömək edir. Dövlət tərəfindən buraxılan kağız pul kütləsinin xeyli hissəsi kredit, maddi yardım və i.a. formasında iri firmalara və inhisarlara çatır. Alınmış borcların qaytarılması isə inflyasiya nəticəsində alıcılıq dəyərinin aşağı düşdüyü pullarla həyata keçirilir.

İnflyasiyanın inkişafının ilkin mərhələsində iqtisadiyyata təsiri aşağıdakı kimidir. Əgər inflyasiyanın və qiymətlərin artım sürətləri yüksəlirsə və pul tez dəyərdən düşməyə başlayırsa iqtisadiyyatda, adətən, pozğunluq baş verir. Qiymətdən düşmüş kağız pullar universal alıcılıq vasitəsi olmaqdan çıxır, bü-

tün, ilk növbədə uzunmüddətli kredit sistemi pozulur, amortizasiya fondları qiymətdən düşür, əsas kapitalın təzələnməsi kəskin surətdə azalır və nəticədə bütün təkrar istehsal prosesi pozulur.

Lakin hətta pulun az dəyərlikdən düşdüyü yavaş axarlı inflyasiya belə mənfi nəticələr törədir. Bu ona görə baş verir ki, inhisarların mənfəətinin inflyasiya artımı əhalinin tədiyə qabiliyyətli tələbinin azalmasına səbəb olur. Beləliklə, inflyasiya kapital yığımı prosesinin baş verdiyi əsası sarsıdır.

İnflyasiya hər birinə müəyyən inflyasiya növünün və müvafiq qiymət artımının xas olduğu aşağıdakı mərhələlərdən keçir. *Birinci mərhələdə* inflyasiya prosesləri nisbətən yavaş gedir. Belə inflyasiya *mülayim*, yaxud sürünən adlandırılır. Bu halda pul ildə 2-3% qiymətdən düşür. Əgər pul xərcləri və əmək haqqı müvafiq surətdə artırsa, əhali mülayim inflyasiyanı xeyli sakit qarşılayır. Lakin bu inflyasiya növünün mənfi nəticələri hər halda xalq təsərrüfatında özünü göstərir. Hər bir, hətta təsadüfi amillər xalq təsərrüfatını oynaq tarazlıq vəziyyətindən çıxara və daha yüksək səviyyədə, ildə 5-7% sürətli inflyasiyanın inkişafı üçün şərait yarada bilər. Bu halda iqtisadi artım sürəti xeyli azalır, elmi-texniki tərəqqi ləngiyir və sosial-iqtisadi gərginlik artır.

İnflyasiyanın *ikinci mərhələsində* qiymətlərin qalxması artıq iki rəqəmlə ifadə olunur. Belə inflyasiya *çaparaq* və ya sıçrayışlı adlandırılır. Bu inflyasiyanın baş verdiyi ölkələrdə iqtisadi artım praktiki olaraq dayanır. Çox yüksək inflyasiyada xalq təsərrüfatı *staqflyasiya* vəziyyətinə daxil olur. Yəni onun inkişafında tam durğunluq baş verir. Eyni zamanda sosial-siyasi şərait son dərəcə kəskinləşir. Həm də bu mərhələdə inflyasiya sürəti nə qədər yüksək olarsa, xalqın keçirdiyi siyasi sarsıntılar o qədər dərin və ağır olur. Çaparaq inflyasiyada qiymətlər ildə 20%-dən 50%-ə qədər qalxır. Müqavilələr, adətən, qiymətlərin artımı nəzərə alınmaqla və ya xarici valyutada (*adətən ABŞ dolları*) bağlanılır. Pullar maddi sərvətlərə qoyulur.

*Hiperinflyasiyada* qiymətlər və tədavüldə olan pulun miqdarı çox böyük sürətlə artır, qiymətlə əmək haqqının səviyyəsi arasındakı uyğunsuzluq həddən artıq çoxalır ki, bu da hətta əhalinin təmin olunmuş kateqoriyasının həyat səviyyəsinin kəskin sürətdə aşağı düşməsinə səbəb olur. Hiperinflyasiya şəraitində inflyasiyanın və qiymətlərin artım sürətləri çox yüksək olmaqla istehsalın həcminə və məşğulluğa dağıdıcı təsir göstərirlər. Bu onunla izah edilir ki, alıcılar və satıcılar, istehlakçılar və istehsalçılar əmtəəni indi almaq, həm-

çinin öz əmanətlərini investisiya əmtəələrinə qoymaq yolu ilə gəlirlərini xərcləməklə qiymətlərin güman edilən artımını qabaqlamağa çalışır, yəni puldan yaxa qurtarmağa can atırlar.

Həyatın dəyərinin yüksəlməsi ilə əlaqədar olaraq fəhlələr yalnız qiymətlərin əvvəlki artımını ödəyəcəyi deyil, həm də gözlənilən inflyasiyanı kompensasiya edə biləcəyi nominal əmək haqqının artırlmasına nail olurlar. Bu da son nəticədə xərclərin çoxalmasına və deməli, qiymətlərin yüksəlməsinə səbəb olmaqla, yenidən əmək haqqının artırılması tələbini doğurur ki, bunun ardınca da qiymətlərin yüksəlməsinin yeni dövrəsi başlayır. Nəticədə əmək haqqı və qiymətlərin inflyasiya spiralı əmələ gəlir.

Lakin məsələ bununla məhdudlaşmır. Belə ki, bir çox firma və həmçinin əhali öz kapitalını istehsal resurslarına qoymaq əvəzinə, qeyri-istehsal maddi sərvətlər, yəni qızıl məmulatları, brilliant, qiymətli metallar, mülk və s. alırlar.

Hiperinflyasiyada qiymətlər kəskin və qeyri-bərabər artır, normal iqtisadi münasibətlər pozulur. Sahibkarlar öz əmtəələrinə hansı qiyməti müəyyən edəcəklərini bilmirlər. Alıcılar qiymət orientasiyasını itirirlər, pul sürətlə qiymətdən düşür. O, dəyər, tədavül və tədiyə vasitələri ölçüsü, həmçinin yığım vasitəsi kimi öz funksiyalarını tamamilə yerinə yetirə bilmir.

Hiperinflyasiya, adətən, həmişə pul kütləsinin həcminin ölkə rəhbərliyi tərəfindən düşünülməmiş artırılmasının nəticəsi olur. Qənaətcil pul-kredit siyasətində mülayim inflyasiya hiperinflyasiyaya çevrilə bilmir.

İnkişaf etmiş ölkələrdə (*ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya*) inflyasiyanın əsas növü mülayim inflyasiyadır. Həmin ölkələrdə dövlət tənzimlənməsi onu yol verilən həddlərdə saxlamağa imkan verir.

İnflyasiya, adətən, əmək haqqının yüksəlməsinin (*başqa səbəblər də ola bilər*) nəticəsi kimi məcmu tələb artdıqda iqtisadiyyatın istehlak sektorunda başlayır. Bu halda pulun miqdarı ilə əmtəələr arasındakı bazar tarazlığı pozulur ki, o da qiymətlərin artırılması yolu ilə bərpa olunur.

Beləliklə, istehlak sektorunda başlayan inflyasiya tezliklə xalq təsərrüfatının yerdə qalan bütün digər sahələrinə yayılır. İnflyasiyanın bu növü müəyyən dərəcədə keçid dövrünün pul sisteminin vəziyyətini və qiymətlərin dinamikasını xarakterizə edir. Bu tip inflyasiya "*tələb inflyasiyası*" adlanır.

Bəzi sahələrin xammal, materiallar və i.a. kimi məhsullarının digər sahələrdə istifadə edilməsi xərclərin artmasına səbəb olur ki, bu da nəticə etibarilə mənfəəti azaldır, qiymətlərin və tələbin əvvəlki səviyyəsində istehsalın davam etdirilməsini əlverişsiz edir. İstehsalın fasiləsizliyinin təmin olunması üçün dövlət pul tələbini genişləndirməli və pul kütləsinin çoxaldılması, yəni istehlakçıların gəlirlərinin yüksəldilməsi yolu ilə qiymətlərin artırılmasına şərait yaratmalıdır. Xərclər inflyasiyası mexanizminin mahiyyəti bundan ibarətdir.

Tələb inflyasiyasına nisbətən xərclər inflyasiyası iqtisadiyyatda xeyli yavaş yayılır. Lakin onunla mübarizə aparmaq olduqca çətindir. Çünki, bu mübarizə bazar strukturlarının yaradılması və istehsalın struktur dəyişiklikləri ilə əlaqədardır. Xərclər inflyasiyası Azərbaycan iqtisadiyyatında da baş verir. Onun səbəbi istehlak mallarının qiymətləri ilə müqayisədə işlədilən resursların (*ilk növbədə neft, qaz, neft məhsulları və i.a.*) qiymətlərinin daha çox artmasıdır.

Nəticə etibarilə inflyasiyanı doğuran (*həm tələb inflyasiyasını, həm də xərclər inflyasiyasını*) əsas amillərin mənbəyi istehsaldadır. Həqiqətən də tələb inflyasiyasında qiymətlərin səviyyəsindəki dəyişiklik tələb artıqlığından irəli gəlir. Bu halda istehlakçılar cəmiyyətin istehsal edə bildiyindən çox əmtəələr almaq imkanına malik olurlar, yəni istehsal imkanlarının məhdudluğu üzündən istehsal əmtəə və xidmətlərin həcmini artıra bilmir. Buna görə də artıq tələb qiymətlərin yüksəlməsinə səbəb olur.

Tələb artıqlığı olmadıqda belə qiymətlərin səviyyəsinin qalxması baş verə bilər. Belə inflyasiya xərclərin və bazarda əmtəə təklifinin dəyişilməsi nəticəsində yaranır. Xərclər inflyasiyasında qiymətlərin artmasını məhsul vahidinə məsrəflərin, yəni istehsalın mövcud həcmində orta xərclərin çoxalmasına səbəb olan amillər doğurur. Bu məsrəflər ümumi məsrəflərin buraxılmış məhsulun həcminə bölünməsi yolu ilə müəyyən edilir.

Qiymətlərin mövcud səviyyəsində məhsul vahidinə xərclərin artması mənfəəti, həmçinin istehsalın və təklifin həcmini azaldır. Təklifin aşağı düşməsi qiymətlərin yüksəlməsinə səbəb olur.

Xərclər inflyasiyasının iki əsas amili vardır:

1) əmək haqqının yüksəlməsi;

2) istehsal resurslarının (*xammal, materiallar, komplektləşdiricilər, nəqliyyat xidmətləri və i.a*) qiymətlərinin artması.

Real təsərrüfat həyatında inflyaisyanın bir tipini digərindən fərqləndirmək çətin olur. Tutaq ki, müdafiə xərcləri kəskin surətdə artmış və nəticədə tələb inflyasiyası baş vermişdir. Bu halda qiymətlərin artması həm maddi resursların dəyərinin yüksəlməsinə, həm də əmək haqqının çoxalmasına gətirib çıxardır. Bu da öz növbəsində xərclərin artmasını və bunun nəticəsində də son məhsulun qiymətinin bahalaşmasını doğurur. Tələb inflyasiyası olmasına baxmayaraq, bir çox firmalar üçün o, xərclər inflyasiyasına çevrilir.

Tələb inflyasiyası və xərclər inflyasiyası daha bir mühüm fərqə malikdirlər. Tələb inflyasiyası hədsiz xərclər olduqda, yəni bazarda pul kütləsi həddən artıq miqdarda olana qədər davam edir. Xərclər inflyasiyası isə özü-özünün qabağını alır. Yəni, təklifin azalması nəticəsində istehsalın həcmi və məşğulluq aşağı düşür ki. bu da xərclərin artımının məhdudlaşdırılmasına səbəb olur. Deməli, xərclər inflyasiyası istehsalın azalması ilə nəticələnir ki, bu da xərclərin sonrakı artımının qarşısını alır.

İnflyasiya aşağıdakı göstəricilərin köməyi ilə ölçülür:

1) qiymət indeksləri və manatın alıclıq qabiliyyəti;

2) inflyasiya sürəti, əmək haqqı və əhalinin real gəlirləri indeksləri.

İnflyasiya səviyyəsinin qiymətləndirilməsi üçün praktiki hesablamalarda aşağıdakılardan istifadə edilir:

1) istehlak qiymətləri indeksi;

2) istehsal qiymətləri indeksi;

3) deflyator.

Deflyator – cari ilin nominal ÜMM-in bazis ilinin qiymətləri ilə hesablanmış ÜMM-ə, yəni real ÜMM-ə olan nisbətidir. İstehlak qiymətləri indeksi və istehsal qiymətləri indeksindən fərqli olaraq deflyator nəinki qiymətlərin dəyişilməsini, həm də nemətlər səbətinin strukturunun dəyişilməsini xarakterizə edir.

Son illərdə Azərbaycan iqtisadiyyatında qiymətlərin artım sürəti inkişaf etmiş ölkələrdəki qiymətlərin artım sürəti ilə müqayisədə xeyli yüksək olmuşdur. Buna görə də inflyasiya proseslərinin və qiymətlərin dövlət tənzimlənməsi problemləri iqtisadiyyatın idarə olunmasının həyata keçirilməsində öz aktuallıqlarını yenə də saxlayırlar.

## *3. QİYMƏTLƏRİN İNFLYASİYA ARTIMININ NƏTİCƏLƏRİ VƏ ONLARIN İQTİSADİYYATIN İNKİŞAFINA TƏSİRİ*

İnflyasiya, xüsusən də hiperinflyasiya iqtisadiyyata dağıdıcı təsir göstərir. Bu ilk növbədə qiymətlərin növləri (*məsələn, topdansatış və pərakəndə satış*), istehsalın mərhələləri üzrə və tədavüldə qeyri-bərabər artmasında özünü göstərir. Qiymətlərin yüksəlməsi həm hazır əmtəələri, həm də istehsal amillərini əhatə edir və zaman etibarilə müxtəlif vaxtlarda baş verir. Qiymətlərin dinamikasında dəyişikliklər inflyasiya olmadığı şəraitdə də mümkündür. Lakin bu halda iqtisadiyyata onların mənfi təsiri zəif hiss olunacaqdır. İnflyasiya şəraitində isə qiymətlərin qeyri-bərabərliyi kəskin surətdə artır və bütün iqtisadiyyata sabitsizləşdirici təsir göstərən amilə çevrilir. Müxtəlif qiymət növlərinin qeyri-bərabər surətdə dəyişilməsi ayrı-ayrı təsərrüfatçılıq subyektləri üçün əhalinin bir çox təbəqələrinin itirilməsinə və digər hissəsini özünə cəlb etməsinə səbəb olur.

Qiymətlərin artması ilk növbədə tədavül dairəsində olan maddi-əşya elementlərini əhatə edir, ehtiyat şəklində toplanmış əmtəə-maddi dəyərli şeylər isə qiymətdən düşür. Buna görə də maliyyə çətinlikləri baş verməsin deyə xammal, materiallar, tamamlanmamış istehsalat, əsas istehsal fondları müntəzəm olaraq yenidən qiymətləndirilməlidir. Lakin bu iş qiymətlərin artımına nisbətən ləng həyata keçirilir. Belə vəziyyət qiymətlər liberallaşdırıldıqdan sonra Azərbaycanda da yaranmışdır. Yəni qiymətlərin kəskin sıçrayışından sonra müəssisələrin dövriyyə fondları yenidən qiymətləndirilməmişdi. Nəticədə də dövriyyə fondlarının kəskin çatışmazlığı yarandı ki, bu da ödəməmə böhranının səbəblərindən biri oldu. Bütün pul ehtiyatları da (*əmanətlər, hesablardakı pul vəsaitlərinin qalığı və i.a.*) həmçinin qiymətdən düşdü.

İnflyasiyanın əsas mənfi nəticəsi gəlirlərin kortəbii surətdə yenidən bölgüsüdür. Əvvələn, təsbit olunmuş nominal gəlirli əhali qruplarının (*pensiyaçılar, tələbələr, dövlət idarələrinin işçiləri və i.a.*), yəni büdcəçilərin nominal gəlirlərinin artım sürəti inflyasiyanın artım sürətindən geri qaldıqda, onların gəlirlərinin azalmasına səbəb olur. Buna görə də belə şəraitdə inflyasiyanın artımına müvafiq olaraq gəlirlərin indeksləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

İkincisi, əgər təsbit olunumayan gəlirlər əldə edən əhali qruplarının nominal gəlirləri qiymətlərin artımını ötüb keçirsə, bu halda onlar inflyasiyadan qazana bilirlər. Sənayenin inkişaf etməkdə olan sahələrinin işçiləri inflyasiya səviyyəsinə uyğunlaşdırılmış nominal əmək haqqı alırlar. Hazır məhsulların qiymətləri resursların qiymətlərindən, yəni xərclərdən daha sürətlə artdıqda isə firmaların rəhbərləri və başqa mənfəət əldə edənlər üçün inflyasiya əlverişli olur.

Üçüncüsü, inflyasiya və ona uyğun gələn qiymətlərin artımı əmanətləri, yəni bankdakı cari və təcili hesabları, sığorta polisini və digər təsbit olunmuş dəyərli kağız aktivləri qiymətdən salır.

Dördüncüsü, inflyasiya gəlirlərin kreditorlar və debitorlar arasında yenidən bölgüsünə səbəb olur. Belə ki, debitor fayda əldə edir, kreditor isə uduzur. Çünki borc alan, yəni debitor inflyasiyanın miqdarı həcmində qiymətdən düşmüş borcu ona qaytarır.

İnflyasiya təsərrüfatın inkişafının mühüm iqtisadi göstəricilərinin və ilk növbədə kreditə görə faizin və istehsalın rentabelliyinin təhrif edilməsinə səbəb olur. İqtisadiyyatın və istehsalın normal vəziyyətində faizin kəmiyyəti və rentabellik dərəcəsi müəyyən asılılıqda olurlar. Faiz dərəcəsi istehsalın rentabelliyinin dinamikası ilə müəyyən edililr. Inflyasiyanın başlanması ilə bu asılılıq pozulur və kreditə görə faizin dinamikası istehsalın rentabelliyinin dinamikasına müvafiq gəlməyərək ondan kəskin surətdə müxtəlif istiqamətlərə kənarlaşır. Qiymətlərin inflyasiya artımı faiz dərəcəsinin yüksəlməsinə səbəb olur. Çünki, kreditor öz pulunu saxlamaq və borca görə faiz almaq üçün qiymətlərin artım sürətindən yüksək faiz dərəcəsi müəyyən etməyə məcburdur. Faiz dərəcəsinin yüksəlməsi müəssisələrin rentabelliyini xeyli aşağı salır ki, bu da istehsalın normal gedişini pozur, onun azalmasına və hətta dayanmasına da səbəb olur. Buna görə də kreditin yüksək faiz dərəcəsində yalnız investisiyalara deyil, həm də cari istehsal üçün borclar kəskin surətdə azalır.

İnflyasiya şəraitində müəssisələrin maliyyə vəziyyətinin kəskin şəkildə dəyişilməsi, yəni pisləşməsi baş verir.

Faiz dərəcəsinin yüksəlməsi və rentabelliyin artıb-azalması istehsalın pozulmasına səbəb olmaqla, cəmiyyətin iqtisadi həyatını sarsıdır. Nəticədə istehsalın rentabelliyi istehsalatda elmi-texniki tərəqqinin tətbiqindən və müəs-

sisə kollektivinin səyindən deyil, qiymətlərin dinamikasından və kreditə görə faizin kəmiyyətindən asılı olur.

İnflyasiyanın yüksək səviyyəsində mövcud təsərrüfat əlaqələri pozulur, ödəməmə silsiləsi yaranır ki, nəticədə də müəssisə və firmaların maliyyə vəziyyəti xeyli ağırlaşır.

Xarici ölkələrin təcrübəsi göstərir ki, inflyasiyadan tam xilas olmaq mümkün deyildir və o, iqtisadiyyatın inkişafının daimi yol yoldaşına çevrilmişdir. Odur ki, iqtisadçıların vəzifəsi inflyasiyanın istehsalın dayanıqlı inkişafına imkan verən optimal səviyyəsini tapmaqdan ibarətdir. Bunun üçün inflyasiyanı idarə etməyi və onu müəyyən həddlərdə saxlamağı öyrənmək lazımdır.

İnflyasiyanın aradan qaldırılması tədbirlərindən ən əsası istehsalın azalmasının dayandırılması, onun sabitləşdirilməsi və yüksəlişinin başlanmasıdır. İnvestisiyaları xeyli artırmadan buna nail olmaq mümkün deyildir. İstehsalın azalmasının dayandırılması və onun tədricən yüksəldilməsinə nail olunmazsa, inflyasiya ilə mübarizə tədbirlərinin görüldüyü barədə danışmağın mənası yoxdur.

Antiinflyasiya siyasətinin digər istiqaməti pul emissiyası artımının ardıcıl surətdə məhdudlaşdırılmasıdır ki, o da iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi, həmçinin büdcənin qaydaya salınması və qiymətlərin birbaşa tənzimlənməsi tədbirləri ilə sıx əlaqələndirilməlidir.

İqtisadiyyatın struktur dəyişikliklərinə aşağıdakılar daxil edilməlidir:

1) iqtisadiyyatın, ilk növbədə sosial yönümlü bazar iqtisadiyyatının formalaşmasını təmin edən elm tutumlu və yüksək texnoloji istehsalın təşkilinə kömək etməli olan sahələrin və istehsalların inkişafının dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi. Bu proqramları reallaşdırmaq üçün maliyyə mənbələrini dəqiq müəyyən etmək lazımdır;

2) sərt və ardıcıl antiinflasiya siyasətinin həyata keçirilməsi;

3) dövlətin iştirakı ilə iri birliklərin təşkili daxil olmaqla, üfqi və şaquli inteqrasiyanın inkişafı üçün lazımi şəraitin yaradılması.

Büdcə siyasətini həyata keçirərkən sosial gərginliyin artması probleminə çox diqqətlə yanaşılmalıdır. Qiymətlərin tənzimlənməsi metodlarına aşağıdakıları aid etmək lazımdır:

1) iqtisadiyyatın baza sahələrinin məhsullarının və strateji mühüm əmtəələrin qiymətlərinin tənzimlənməsinin xüsusi formalarının, o cümlədən inhisarçı müəssisə və sahələrin məhsullarının bəzi növlərinə və qruplarına hədd qiymətlərinin müəyyən olunmasının tətbiqi;

2) sahibkarlar, hökumət və həmkarlar ittifaqları arasında qiymət, gəlirlər və vergilər sahəsində vahid məhdudlaşdırıcı siyasətin aparılmasına dair müqavilənin qəbul edilməsi və onun yerinə yetirilməsinə səmərəli nəzarət mexanizminin işlənib hazırlanması.

Qeyd olunan tədbirlərin əhəmiyyətinə baxmayaraq iqtisadiyyatın ümumi canlanmasını stimullaşdırmadan real nəticələrə nail olmaq mümkün deyildir. Belə stimullaşdırıcı tədbirlər vergi sisteminin qaydaya salınması, məhsuldar yığımın stimullarının gücləndirilməsi, strateji, o cümlədən elmi potensialın müdafiəsi, öz şəxsi işinin açılması və aparılması qaydasının sadələşdirilməsi, kredit siyasətinin yumşadılması olmalıdır.

Beləliklə, Azərbaycanda maliyyə-iqtisadi siyasətin əsas istiqamətləri aşağı inflyasiya səviyyəsində investisiyaların xeyli artırılması və iqtisadiyyatın daha da canlandırılması olmalıdır. Bunu bazar iqtisadiyyatının dayanıqlı inkişaf etdiyi ölkələrin təcrübəsi də təsdiq edir.

İqtisadiyyatımızın digər mühüm məsələləri statistik informasiyaların makroiqtisadi təhlilinin həyata keçirilməsi, inflyasiya proseslərinin inkişaf meyllərinin aydınlaşdırılması və onların qanunauyğunluqlarının öyrənilməsidir.

Seminar sualları:

1.İnflyasiya zamanı qiymətlər
2.Xərclər inflyasiyası və qiymətlər
3.İnflyasiya zamanı qiymətlərin dinamikası
4.Qiymətlərin artımının iqtisadiyyata təsiri.
5.İnflyasiyanın inkişaf mərhələlərində qiymətlər
6.Tələb inflyasiyası və qiymətlər
7.İnflyasiyanın hesablanmasında qiymət indeksi metodu
8.Qiymət deflyatoru
9.Qiymətlərin inflyasiya artımının nəticələri
10.İnflyasiya zamanı qiymıtlərin tənzimlənməsi